


# Əlifba

BAKI 2020

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin
Elmi Şurasının qərarı ilə nəşr edilir

## Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyinə həsr olunur

Elmi redaktor:
*akademik Nailə Vəlixanlı*

Müəllif:
*tarix üzrə fəlsəfə doktoru Məhfuzə Zeynalova*

Dizayn:
*Cəmilə Aşumova*

Foto:
*Mirnaib Həsənoğlu*

## *Əziz oxucumuz!*

Bu gün ilk səhifəsini açacağın, və yəqin ki, masaüstü kitabına çevriləcək bu “Əlifba” kitabı indiyədək gördüyün ənənəvi “Əlifba”lardan fərqlənir. Düşünürük ki, nəinki uşaqların və yeniyetmələrin eləcə də yaşlıların marağına səbəb olacaq bu kitab Milli Azərbaycan Tarixi Muzeyinin zəngin xəzinəsinin sirli qapılarını Sizlərin üzünə açacaq, Sizi Azərbaycanın qədim tarix, maddi-mənəvi mədəniyyət nümunələri ilə tanış edəcəkdir. Bu maraqlı əşyaların bir çoxunun qədim adını Siz bəlkə də unutmusunuz, ya da ümumiyyətlə bu adlar Sizlərə yad görünür. Kitabın adı da təsadüfü deyil. Onun hər bir səhifəsi Sizə xalqımızın həyatında, məişətində işlənilən müxtəlif əşyalar haqqında məlumat verəcək, onların artıq dilimizdən çıxmış, çox vaxt anaxronizmə çevrilmiş adlarını yadınıza salacaqdır. Bizim üçün vacib olanı odur ki, zamanın sınaqlarına dözmüş, qorunaraq bu günümüzə yetişmiş genetik yaddaşımızı müasir həyat tərzimiz məhv etməsin. Axı, əsrdən-əsrə, nəsildən-nəslə ötürülən hər bir ad xalqımızın həyatını və yaşayış tərzini özündə əks etdirir. Və biz bu sərvəti itirməməliyik.

Əziz oxucumuz!

Biz bu “Əlifba” kitabını rəngarəng, maraqlı, həm də  daha məlumatlı etməyə çalışdıq. İstədik ki, o yalnız muzeysevər, tarixə və etnoqrafiyaya marağı olan uşaqların deyil, böyüklərin də kitabı olsun. “Əlifba”nı maraqlı edən cəhətlərdən biri də bu kitabın məhz Muzeyimizin  kolleksiyasında qorunan artefaktlardan istifadə etməklə tərtib olunmasıdır.

Əziz valideynlər!

Biz ümidvarıq ki, “Əlifba”nı uşaqlarınıza oxuyub başa çatdırdıqdan sonra, Siz yenidən və yenidən, bir daha bu kitabı əlinizə almaq, növbəti dəfə muzeyə gəlmək istəyəcəksiniz. Yeni gəlişinizdə ekspozisiyadakı eksponatlar Sizlərə daha tanış və sözsüz ki, daha doğma görünəcək. “Əlifba”nı oxuyun və muzeyimizin qeyri-adi, sirrli dünyası ilə daha yaxından tanış olun!

# A



Aftafa-ləyən

***Arxalıq -*** qadın və kişi üst geyimi. Arxalıq uzunqol, beli kəsmə və büzməli olurdu. Tirmə, atlaz, məxmər və s. parçalardan tikilərdi. Kişilərdə arxalıq əsasən mahud və yun parçadan idi, soyuqda onun üstündən çuxa geyinərdilər. Şəkildəki arxalıq Qarabağın sonuncu xanı Mehdiqulu xan Cavanşirin qızı, şairə Xurşidbanu Natəvana aiddir.





***Aftafa-ləyən*** - əl-üz yuyan dəsti. Misdən, gümüşdən hazırlanır, əksər hallarda üzəri naxışlı və yazılı da olurdu. Yeməkdən əvvəl və sonra süfrəyə gətirilərdi. Şəkildəki aftafa-ləyən muzeydə qorunur, XIX əsrin sonuna aiddir. əl-üz yuyan dəsti. Misdən, gümüşdən hazırlanır, əksər hallarda üzəri naxışlı və yazılı da olurdu. Yeməkdən əvvəl və sonra süfrəyə gətirilərdi. Şəkildəki gümüşdən hazırlanmış aftafa-ləyən Hacı Zeynalabdin Tağıyevin ailəsinə Buxara əmiri Seyid Mir Əbdül Əhəd xan tərəfindən hədiyyə edilmişdir.



***Araxçın*** – milli baş geyim növlərindən biri. Araxçının üstündən qadınlar örpək, kişilər isə papaq və ya çalma geyinərdilər. Araqçını əvvəllər birrəng parçadan, sonralar isə tirmə və digər qalın parçalardan hazırlayıb, üstünü tikmə və ya pərəklərlə bəzəyərdilər. Şəkildəki araxçın muzeydə qorunan incilərdəndir, XIX əsrin sonuna aiddir.

# B



Barıtqabı



***Beşik*** – körpə uşaqlar üçün ağacdan hazırlanmış yelləncək. Əksər hallarda sadə olur, bəzən isə üzəri sədəf və gümüşlə də bəzədilirdi. Şəkildəki beşık Şəki xanı Məmmədhüseyn xana (1759-1780) məxsusdur.



***Barıtqabı*** – barıtı saxlamaq və daşımaq üçün xüsusi qab. Orta əsrlərdə döyüşlərdə çaxmaqlı tüfənglər işlənilir, onlardan atəş açmaq üçün barıt istifadə olunurdu. Hər tüfəngçidə barıt ilə doldurulmuş, fərqli quruluşlu, sadə və ya bəzəkli xüsusi barıtqabılar olurdu. Şəkildəki barıtqabı muzeydə qorunan ən gözəl nümunələrdəndir, XIX əsrə aiddir.

***Bığbağı*** – bığın səliqəli qalması üçün kişilərin yatdıqları zaman istifadə etdikləri xüsusi bağ. Üstü adətən güləbətın naxışlı olurdu.





***Balta*** – təsərrüfat işlərində və döyüşdə istifadə olunub. Baltalardan ibtidai insanlar da istifadə edirdilər. İlk baltalar daşdan hazırlanırdı. Sonralar təsərrüfat və döyüş baltaları formaca bir-birindən fərqləndirilirdi.Muzeydə 5 min yaşı olan daş, 4 min yaşı olan tunc baltalar qorunur.

# C



Cam

**Cecim** – müxtəlif rəngli ipək və ya yun iplərdən toxunan zolaqlı xovsuz xalça növü. Arasına yorğan-döşək yığmaq,döşəməyə salmaq və ya bəzək kimi divardan asmaq üçün də istifadə olunub.





**Corab** - uzun və ya qısaboğazlı ayaq geyimi. Corablar müxtəlif rəngli ipəkdən, çox vaxt yundan, zolaqlı və naxışlı toxunurdu. Corabların üzərindəki naxışlar Azərbaycanın bölgələrindən asılı olaraq dəyişirdi və çox vaxt xalçalarda olan naxışlarla eynilik təşkil edirdi.



**Cam** – maye üçün istifadə olunan piyalə. Keçmişdə gildən, sonralar mis, çini və digər materialdan hazırlanan camların üzərinə zərif naxışlar, təsvirlər və yazılar da vururdular.



**Cıqqa** – orta əsrlərdə qadın və kişi baş geyiminə taxılan bəzək elementi. Qiymətli metallardan və ya sümükdən hazırlanan cıqqanın üzəri daş-qaşla bəzədilirdi, bəzi hallarda yaraşıq üçün at quyruğu və quş lələyindən də istifadə olunurdu.

# Ç



Çul



***Çuxa*** - dizdən aşağı, uzunqol milli kişi üst geyimi. Çuxa atmaqollu və atmaqolsuz, döşü qazırlı(vəznəli) və sadə yaxalı olurdu. Çuxanın üstündən kəmər və xəncər də taxılardı. Əsasən yun, mahud və atlaz parçalardan tikilərdi. Altından köynək, soyuq olanda arxalıq da geyinərdilər.



***Çəpkən*** – qadın üst geyimi. Çəpkən belə qədər bədənə kip tikilirdi. Qolları müxtəlif formalı olurdu. Kənarları ipək və ya güləbətın bafta ilə bəzədilirdi. Yan tərəflərdə ətəyə yaxın hissədə kəsiyi olan çəpkənin əlçək ilə bitən atma qolları da vardı. Beldən bağ ilə bağlanırdı. Çəpkən tirmə, məxmər, yun, ipək və başqa parçalardan tikilirdi.



***Çul*** - Üstündə oturmaq və ya heyvanı soyuqdan qorumaq məqsədilə atın, uzunqulağın və dəvənin belinə salınan xüsusi örtük. Çul xovsuz xalça növündən və ya parçadan hazırlanırdı. Toy-bayramda dəbdəbə ilə bəzədilmiş çullardan istifadə olunurdu.



***Çıraq*** – gildən və metaldan hazırlanan işıqlandırıcı vasitə. Çırağa yağ, piy və ya neft doldurub, içinə piltə salıb yandırılardı. Muzeydə qorunan ən qədim çıraq I-III əsrlərə aiddir.

***Çutqu (içitük)*** – parçadan tikilmiş qadın baş geyimi. Saçlar çutquya salınır, arxadan bağlanılırdı. Cutqunun alınlıq hissəsi bəzəkli güləbətin bafta və ya qızıl və gümüş lövhələrlə, digər tərəfi isə bafta və saçaqlarla bəzədilirdi.



# D



Dəbilqə

***Dümçə (düyməcə)*** - parça və gümüş bəzəklərdən ibarət qadın baş geyimi. Qadınlar dümçəni toylara, təmtərahlı məclislərə geyinər, üstündən tac taxardılar. Dümçədən əsasən Azərbaycanın şimal və şimal-qərb bölgələrində istifadə olunurdu.





***Dolça*** - su və ya başqa maye üçün misdən hazırlanmış alt hissəsi nisbətən enli, ağız tərəfə getdikcə daralan uzunsov birqulplu qab. Üzəri müxtəlif naxışlarla, yazılarla bəzədilirdi.

***Daraqqabı*** – daraq saxlamaq üçün məxmər və ya digər materialdan hazırlanmış naxışlı, güləbətın tikməli, bəzən üstü qızıl piləklərlə bəzədilmiş xüsusi qab.





***Dəbilqə*** - orta əsrlərdə döyüş zamanı mühafizə məqsədilə başa qoyulan metal və ya dəri papaq. Dəbilqənin əlavə elementləri (halqalı tor, burunluq, maska, qulaqlıq) döyüşçünün boyun-boğazını və üzünü qorumaq imkanı verirdi. Şəkildə e.ə. III-I əsrlərə aid Muzeydə qorunan ən qədim dəbilqədir.

# E

Eksponat





***Ekspozisiya*** – muzeydə və ya sərgidə eksponatların müəyyən qayda üzrə yerləşdirilməsi, düzümü, nümayiş etdirilməsi ekspozisiya adlanır. Şəkildə gördüyünüz Muzeyin məşhur “Şərq zalı”dır.



***Eksponat*** – muzeydə, sərgidə nümayiş etdirilən hər hansı bir əşya.



***Eşmək*** – qolsuz, sırınma, kənarlardan xəzlə bəzədilmiş qadın qış üst geyimi.

# Ə



əba



***Əyircək*** - yun və ya pambıq liflərini əyirib ip halına salmaq üçün kiçik ölçülü alət. Qədim zamanlarda çaydaşından və ya gildən hazırlanırdı. Şəkildəki III-VII-ci əsrlərə aid əyircək Siyəzən rayonu ərazisindən tapılmışdır.

***Əlçək*** - arxalıq və ya çuxanın qoluna tikilən bəzəkli geyim hissəsi. Adətən xanımlar toydan əvvəl, xınayaxdı zamanı əlləri örtmək üçün istifadə edirdilər. Şəkildəki muzeydə qorunan XIX əsrə aid əlçək qızıl pilək və güləbətin naxışla bəzədilib.





***Əba*** - müsəlman din xadimlərinin geydikləri yaxasıaçıq uzun kişi üst geyimi. Əba mahuddan, tirmədən, şaldan və digər parçalardan tikilərdi. Şəkildəki əba Azərbaycan Demokratik Respublikasının ilk Şeyxülislamı Axund Ağa Cavad oğlu Əlizadəyə məxsusdur.

***Ərsin*** — Xəmir işlərində və təndirdə çörəkbişirmə zamanı istifadə edilən dəmir kürəkcik şəklində alət. Təndir ərsini təndirdən çörəyi qazıb çıxarmaq və təndirin divarlarındakı qalıqları təmizləmək, daha qısa qulplu xəmir ərsini xəmiri yığmaq və kəsmək üçün istifadə edilir. Şəkildə xəmir ərsini təsvir olunub.



# F

Fayans qab





***Fayans qab*** - məişətdə istifadə olunan qab. Fayans - gil, kvarts, əhəng və s. qarışığından əmələ gəlir. İlk fayans kaşılar orta əsrlərdən məlumdur. Şəkildəki zərfayans qab muzey kolleksiyasının incilərindəndir.



***Fənər*** – işıqlandırıcı vasitə. İçinə yağ və ya ağ neft doldurub, piltə vasitəsilə yandırılardı. Bəzi fənərlərin asmaq üçün qarmağı da olurdu.



***Fit*** - Nəfəsli musiqi aləti. Şəkildə arxeoloji qazıntılar zamanı Şamaxı rayonu Gülüstan qalasından aşkar olunmuş IX-XII əsrlərə aid ən qədim musiqi alətlərindən olan gildən hazırlanmış fitdir.



***Fitə -*** xüsusi forma və ölçüdə ipək və ya pambıq parçadan hazırlanan bədəni örtmək üçün hamamda istifadə olunan örtük.

# G



Gam



***Güzgü*** - İlk güzgülər metaldan idi. Sonralar güzgüləri şüşədən hazırlayır, arxasını nazik gümüş, qızıl və ya qurquşun təbəqəsi ilə örtürdülər. Muzeydə 3 min yaşı olan arxeoloji qazıntılar zamanı aşkar olunmuş tunc əl güzgüləri qorunur.

***Güyüm*** - Su daşımaq və ya saxlamaq üçün uzun boğazlı, iri qulplu, mis qab. Qadınlar güyümə bulaqdan suyu doldurub, çiyinlərində aparardılar.





***Gəm*** - yüyənin atın ağzına keçirilən hissəsi. Əvvəllər sümükdən, sonralar isə metaldan düzəldilirdi. Şəkildə Muzeydə qorunan IV min yaşı olan gəm təsvir olunub.

***Güləbətin*** - Qızılı və ya gümüşü saplarnan naxışlanan tikmə növüdür. Güləbətin üst geyim və ev bəzək əşyalarında (balış üzü, süfrə, pərdə və s.) istifadə olunurdu. Şəkildə muzeydə qorunan XIX əsrə aid güləbətin tikməli Quranqabıdır.



# Ğ



Nağara



***Kəlağayı*** - İpək sapdan toxunmuş müxtəlif rəngli, haşiyəli, dördkünc qadın baş örtüyü. Xüsusi hazırlanmış basmaqəlib vasitəsilə kəlağayının üzərinə naxışlar vururdu. Azərbaycan kəlağayı sənəti 2014-cü ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

***Nağara*** – Azərbaycanın qədim mili zərb alətidir. Hər iki üzünə dəri (qurd, keçi, dəvə, balıq və s.) çəkilmiş sağanaq adlandırılan silindrik gövdəlidir .



# Həvəngdəstə

# H



***Həvəngdəstə*** - müxtəlif bərk maddələri əzib toz halına gətirmək üçün əvvəllər daş,sonralar bürünc, saxsı, dəmir və başqa metallardan düzəldilmiş dərin qab və dəstəkdən ibarətdir. Şəkildə muzeydə qorunan Naxçıvan MR-nın Kültəpə abidəsindən arxeoloji qazıntılar zamanı aşkar olunan e.ə. IV-III minilliklərə aid həvəngdəstədir.





***Həvə*** - xalça, palaz və s. toxuyarkən ilmələri döyüb yerində bərkitmək üçün heyvan buynuzundan, yaxud da ağacdan, metaldan və s.-dən hazırlanan ucu kəsik, dişlı alət. Toxmaq da adlanırdı.



***Heybə*** - çiyindən, bəzən də atın belindən asılan xurcuna bənzər, çanta kimi işlədilən torba. Xovsuz xalça texnikasında toxunur və ya cecimdən tikilirdi

***Həsir*** – bəzi ağacların liflərindən, qamışdan, küləş və s. bitkilərdən toxunan, yerdə döşənəcək kimi işlədilirdi. Azərbaycanın nəmişlik olan cənub bölgəsinin məişətində daha geniş istifadə olunurdu.



# X



Xəncər



***Xalça*** - yaşayış yerlərinin bəzədilməsi və isidilməsi üçün müxtəlif yun və ya ipək saplardan toxunulur. Üstü naxışlı və bəzəkli olur. Xalçaların üzərindəki naxışlar Azərbaycanın bölgəsindən asılı olaraq dəyişirdi. Azərbaycanın ənənəvi xalçaçılıq sənəti 2010-cu ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezantativ Siyahısına daxil edilmişdir.



***Xələt*** – müxtəlif növ parçadan tikilən üst geyimi. Şəkildəki XIII əsrə aid ipək xələt arxeoloji qazıntılar zamanı Mingəçevirdən aşkar olunub.



***Xəncər*** - ucu sivri, hər iki tərəfi (tili) iti soyuq silah. Xəncər qına salınaraq, kəmərdə daşınırdı. Xəncər Azərbaycan milli kişi geyiminin atributlarından biridir.



***Xurcun*** - adətən yük və ya minik heyvanlarının belindən aşırılan, çanta kimi istifadə olunan, palaz kimi yun və ya ipək saplardan toxunan, ya da cod parçadan tikilən ikigözlü torba.

# I

# Qılınc



***Qılınc*** – kəsici və batırıcı zərbələr vurmaq üçün uzun tiyəli silah. Orta əsrlərdə Azərbaycanda qılınc cəngavərin əsas rəmzi idi. Şəkildəki qılınc arxeoloji qazıntılardan aşkarlanıb və Qafqaz Albaniyasının döyüşçülərinə məxsus olub.





***Sırğa*** – Əsasən qadınların taxdığı qulaq bəzəyi. Qədim türklərdə və bir sıra digər xalqlarda kişilər də sırğa taxırdılar. Tana, küpə də adlanır. Əsasən qızıl, gümüş və başqa metallardan hazırlanır, müxtəlif qaş-daşlarla bəzədilirdi.

# i



İsgənə



***İynə*** - ilk iynələr heyvan sümüyündən, sonralar metaldan hazırlanırdı. Bir ucu iti digər ucunda isə sap keçirmək üçün deşiyi olan nazik uzun iynələr muzeydə qorunur. Şəkildəki tunc iynə arxeoloji qazıntılar zamanı tapılmışdır və e.ə. II-I minilliklərə aiddir.



***İlmə*** - Toxunma şeylərin (xalça, corab, parça və s.-nin) ayrı-ayrı halqaşəkilli düyünləri. Xalça toxunarkən iki ərişə bir ilmə salınır. İlmə salınarkən yun ip iki ərişə dolanıb düyünlənir, qalan iki ucu isə xalçanın xovunu yaradır.



***İsgənə*** - Dayaz oyuqlar açmaq, kəsmək, parçalamaq, yonmaq və təmizləmək üçün istifadə olunan alət. Hələ qədim daş dövrü insanları nəyisə kəsmək və ya doğramaq üçün daş qopuqlarından istifadə edirdilər. Muzeydə arxeoloji qazıntılar zamanı tapılmış e.ə. VI-IV minilliklərə aid olan daş isgənələr qorunur.

# J



Jelonka



***Jelonka*** - quyudan neft çıxarmaq üçün işlədilən boruvari cıhaz. XX əsrin 20-ci illərinə kimi neftin quyulardan çıxarılmasında ən çox şəkildə göstərilən jelonkalardan istifadə olunurdu.



***Jeton*** – metal və ya plastikdən hazırlanmış nişan və ya medal. Müəyyən dəyər daşıyan və ya sahibinin kimliyini bildirən kiçik ölçülü jetonlar muzeyin maraqlı eksponatlarındandır. Şəkildə 1921-ci ilə aid Bakı qız qimnaziyasının jetonudur.




***Jurnal*** - kütləvi informasiya vasitəsi, çoxsəhifəli dövri nəşr. Azərbaycanda ilk satirik jurnal “Molla Nəsrəddin” 1906-ci ildə çapdan çıxmışdır.

# K



Kamança



***Kürdü*** - qısa qollu, xəzlə bəzədilmiş qadın qış üst geyimi. Kürdü məxmərdən, tirmədən, dəridən tikilir, bəzən sırıqlı da olurdu. Dirsəyə qədər qolu olan kürdü yaxası açıq, qoltuq altında çapıq olurdu. Ən çox Gəncə-Qarabağ bölgəsində istifadə olunurdu.



***Kilim*** - hər iki üzündən istifadə olunan xovsuz xalçaların ən geniş yayılmış növü. Naxışları romb, üçbucaq və trapesiya formasında olur. Kilimlərin kompozisiyası, üzərindəki naxışları və rəngləri Azərbaycanın bölgəsindən asılı olaraq bir-birindən fərqlənir.



***Kəşkül*** – orta əsrlərdə hind qozunun qabığından, metaldan hazırlanan, dərvişlərin gəzdirdikləri xüsusi çanta. Səyahət edən dərvişlər kəşkülə yerləşən əşyalarla kifayətlənərək maddi dünyadan imtina etdiklərini bildirirdilər.



***Küləcə*** - əsasən bahalı parçalardan (xara, zərxara, məxmər, tirmə və s.) tikilən qadın üst geyimi. Yaxası açıq olan küləcənin uzunluğu dizə qədər, qolu isə dirsəkdən aşağı biçilirdi. Qoltuğun altında yarıq olurdu.Yaxası, beli, ətəyi və qollarının ağzı çox vaxt güləbətin, təkəldüz, muncuq və pilək tikmə ilə bəzədilirdi. Küləcə ən çox toy-bayram zamanı istifadə edilirdi.

# Q



Qazir



***Qəlib*** – naxış vurmaq üçün ağacdan müxtəlif ölçü və formalarda hazırlanan xüsusi alət. Məsələn, kəlağayı və qələmkarların tərtibatında, çörəyin üstünə bəzək vurmaq üçün istifadə olunurdu.

***Qolçaq*** - orta əsrlərdə döyüş zamanı qolları dirsəkdən biləyə qədər qorumaq üçün istifadə edilən xüsusi müdafiə vasitəsi





***Qazır*** – çaxmaqlı tüfəng istifadə edilən dövrdə barıt və güllənin daşınması üçün boruvari qab. “Hazır” sözündən əmələ gəlib. XVIII əsrdə 5-8 qazır bir çiyinli çantada daşınırdı. XIX əsrdən başlayaraq çuxanın döş hissəsinə tikilirdi. XIX əsrin sonundan yalnız dekorativ bəzək rolunu oynayırdı.

***Qələmdan*** - qələm qoymaq üçün xüsusi uzunsov qutu. Ağacdan, metaldan hazırlanır, üstü rəngarəng boyalarla örtülür, müxtəlif süjetli təsvirlərlə bəzədilirdi.





***Qələmkar*** – üzərinə qəliblə basmanaxış vurulub, sonradan zəri qələmlə işlənmiş bədii parça.



***Qalxan*** - orta əsrlərdə döyüş zamanı qılınc və s. zərbələrindən qorunmaq üçün istifadə edilən müdafiə silahı. Qalxanın üzərində çox vaxt döyüşçünü və ya onun təmsil etdiyi sülaləni, dövləti bildirən rəmzlər və nişanələr təsvir edilir, qalxan döyüşçünün “pasportu” rolunu oynayırdı. Muzeydə orta əsrlərə aid üzəri naxışlı, qızıl işləməli qalxanlar qorunur.

# L



Lebbade



***Lövbər*** - Gəmini saxlamaq üçün suya buraxılan zəncirə bağlanmış qarmaqlı metal vasitə. Muzeydə erkən orta əsrlərdə işlədilən daş lövbərlər də qorunur.



***Ləyən*** - məişətdə müxtəlif ehtiyaclar (əl-üz və paltar yumaq, mürəbbə bişirmək və s.) üçün istifadə olunan, misdən və ya başqa materiallardan hazırlanan dərin qab. Saya və ya müxtəlif süjetli naxışlar, kalliqrafik yazılarla bəzədilmiş olurdu.

***Ləbbadə*** - Arxalıq biçimində hazırlanmış qadın üst geyimi. Ləbbadənin yaxası açıq, sırıxlı, qolu və ətəyi qısa, bel hissədə bağları olur. Beldən biraz aşağıda yan tərəflərində çapıqlı, qoltuq yeri açıq biçilirdi. Ləbbadə tirmə, məxmər və müxtəlif zərli parçalardan tikilib, yaxası, qolunun ağzı və ətəyi zərif baftalarla bəzədilirdi. Ləbbadə əsasən Şəki bölgəsində istifadə olunurdu.



# M



Mücrü



***Manqal*** – dəmir, mis və ya gildən düzəldilirdi. Onun içinə kömür qoyaraq, evləri qızdırar və ya xorək bişirərdilər. Qədmi manqallar çox vaxt dairəvi formada, qulplu, üç və ya daha çox ayaqlı olurdu. Şəkildəki manqal XIX əsrin sonuna aiddir və evləri isitməkdən əlavə, interyerə xüsusi gözəllik verərdi.



***Məfrəş*** - Yorğan-döşək, xalça-palaz, pal-paltar və s. saxlamaq və ya daşımaq üçün xovsuz xalça texnikasında sandıq formasında toxunurdu. Bəzi bölgələrdə fərməş də adlanır.Onun ağzını başqa bir xalça məmulatı (məsələn, cecimlə) örtür, kənarlarına tikilən ilgəklərə keçirilmiş iplə dartılıb bağlanırdı.

***Mütəkkə*** - uzunsov, silindr formalı balış.





***Mücrü*** – əsasən bəzək əşyalarının saxlandığı sandıqca. Mücrü ağacdan, metaldan hazırlanır, üzəri parça və ya boya ilə örtülür, naxış, muncuq və təsvirlərlə bəzədilirdi.

# N



Nimçe



***Nimçə*** - gildən, metaldan, çinidən və s. hazırlanmış məişətdə istifadə olunan qab. Şəkildəki gümüş nimçə IV-VII ə. aiddir və qazıntılar zamanı Lənkərandan tapılmışdır. Qabın üzərində boynunda lent olan iribuynuzlu qurbanlıq qoç təsvir olunub.



***Nimtənə*** - qadın üst geyimi. Belə qədər bədənə kip tikilirdi, astarlı və sırıqlı, uzunqol olurdu. Yaxası, qolunun ağzı və ətəyi zərif bafta ilə bəzədilirdi.



***Nizə*** - iti ucluqlu, uzun ağac dəstəyi olan batırıcı silah növü. Muzeydə arxeoloji qazıntılardan aşkar olunmuş nizə ucluqları qorunur.

# O



Ox ucluğu



***Ox*** – yay vasitəsilə uzaq məsafəyə atılan silahın tərkib hissəsi. Ox – ucluq, onun taxıldığı ağac sapdan və lələklikdən ibarətdir. Oxlar xüsusi qabda daşınırdı. Muzeydə oxlar və arxeoloji qazıntılardan aşkar olunmuş ox ucluqları qorunur.

***Oraq*** - taxıl, ot biçmək üçün qısa dəstəli, yarımdairəvi kəsici alət. İlk oraqlar daşdan, sümükdən, sonralar isə metaldan hazırlanırdı. Muzeydə arxeoloji qazıntılardan aşkar olmuş b.e.ə. VI minilliyə aid sümük və daşdan hazırlanmış oraq qorunur.



# Ö



Örtük



***Önlük*** – paltarın üstündən geyilən döşlük. Önlüyü bahalı parçalardan tikib, üzərini xüsusi gümüş pullarla, piləklərlə, tikmələrlə bəzəyirdilər.



***Örtük*** – hər hansı bir əşyanın üzərinə salınan parça. Məsələn xonçanın və ya masanın üzərinə çəkilən bəzəkli, naxışlı, güləbətin və ya təkəldüz tikməli, piləkli, saçaqlı örtüklər.



***Örpək*** – başa örtülən iri yaylıq. Ümumiyyətlə, qadın baş örtükləri öz çeşid müxtəlifliyinə görə maraq cəlb edir. Şal, kəlağayı, örpək və s. araqçının üstündən bağlanır və xüsusi baş sancağları ilə bəndlənirdi. Örpəyi ipəkdən, şaldan, qanovuzdan və digər parçalardan hazırlayıb, bəzən saçaqlarla da bəzəyirdilər.

# P

## Pərdə





***Palaz*** – yundan və ya pambıqdan toxunan ən sadə xovsuz xalça növü. Palaz ev döşəmələrinin, alaçıqların üstünün və içərisinin örtülməsində istifadə olunurdu. Palazı üfiqi zolaqlardan ibarət ənənəvi naxışlarla bəzəyirdilər.



***Piyaləzəng*** – qadınların taxdığı qulaq bəzəyi. Ümumiyyətlə sırğalara formasına görə adlar qoyulub: “səbət”, “üçdüymə”, “qırxdüymə” və s. Çevrilmiş piyalə şəklində olan sırğalara “piyaləzəng” deyilir. Xüsusi tərtibatlı, üstü minalı olan piyaləzəng sırğalar artıq nadir nümunədilər.



***Pərək*** – qızıl və gümüşdən hazırlanan geyim bəzəyi. Paltarın üzərinə tikilən pərəklər geyimə xüsusi gözəllik verərdi. Pərəklər zərgərin və ya sifarişçinin zövqündən asılı olaraq dairəvi, uzunsov, yarpaq formalı və s. hazırlanırdı.



***Pərdə*** - qapı, pəncərə, taxça üçün qanovuz, ipək, xara və s. parçalardan tikilən örtük. Pərdələrin üzəri təkəldüz, güləbətin tikmə ilə, xüsusi rəngli piləklərlə, sacaqlarla bəzədilirdi.

# R



Rəhil



***Rəhil*** – kitabı açıq saxlamaq, üstünə qoyub oxumaq üçün məktəblərdə, məscidlərdə, evlərdə istifadə edilirdi. Ağacdan hazırlanmış rəhillərin üzəri fil sümüyü və ya sədəflə bəzədilirdi.

***Riton*** – gildən və ya metaldan hazırlanmış, buynuzvari, heyvan başı ilə tamamlanan badə. Şəkildə muzeydə qorunan Mingəçevirdən arxeoloji qazıntılar zamanı aşkar olunan b.e.ə. II-I əsrlərə aid maralbaşlı ritondur.





***Rübənd*** – keçmişdə müsəlman qadınları üzünü yad nəzərdən gizlətmək üçün istifadə etdikləri dördkünc formalı baş örtüyü. Rübəndin göz hissəsinə tor qoyulardı, çadra ilə birlikdə istifadə olunardı.



***Rəndə*** - ağacı yonub hamarlamaq üçün yonucu alət.

# S



Sırğa



***Sinəbənd*** - qızıldan və ya gümüşdən hazırlanan qadın boyun bəzəyi "boğazaltı" da adlanır. Mərkəzi hissəsi ay-ulduzdan, boğaz hissəsi isə şəbəkəli lövhələrdən və müxtəlif formalı asmalardan ibarətdir. Sinəbəndi əsasən qırmızı, yaşıl, göy rəngli daş-qaşlarla bəzəyirdilər.



***Satıl*** - Su və ya başqa maye üçün misdən hazırlanmış qab. Satıl birqulplu, gövdəsi armudvari, əksər hallarda üzəri naxışlı və yazılı olardı. Satılı evlərdə, həm də hamama gedəndə vedrə kimi istifadə edərdilər.

***Səhəng*** - Su daşımaq üçün misdən hazırlanmış bir qulplu, gövdəsi böyük, darboğazlı qab. Səhəng sadə və naxışlı-təsvirli də olurdu. Qadınlar bulaqdan suyu gətirərkən səhəngi çiyinlərinə alardılar.



# Ş



Şamdan



***Şeşpər*** – altı pərli zərbə silah növü, həm də hakimiyyət rəmzi kimi istifadə olunub. Şəkildə muzeydə qorunan Qarabağ xanı İbrahimxəlil xana məxsus şeşpər təsvir olunub.



***Şərbətqabı*** – meyvə şirələrinə və ya adi suya qənd qatmaqla hazırlanan şərbət üçün böyük məclislərdə istifadə olunan mis qab. Üzəri təsvirli, naxışlı və yazılı olurdu.



***Şəmşir*** – ("şəmşir" sözünün hərfi mənası – şirin caynağıdır). Uzun tiyəsi əyilmiş batırıcı-kəsici soyuq silah növü. Bəzən tiyənin üzərində ustanın və sahibinin adı, həmçinin Qurandan ayələr həkk olunardı.



***Şəbkülah*** - kişilərə məxsus gecə papağı.Tirmə, ipək və digər parçalardan hazırlanan papaqların üzəri xüsusi zövqlə təkəldüz və ya güləbətin tikmə ilə bəzədilirdi.

# T



Toqqa



***Toppuz*** – zərbə silah növü, qədim və orta əsrlərdə döyüşçülər tərəfindən istifadə olunurdu. Bəzi toppuz növləri qızıl, gümüş və daş-qaşlarla bəzədilirdi. Belə toppuzlar əsasən vəzifəli şəxsin hakimiyyət rəmzi kimi istifadə olunurdu.



***Toqqa*** - kəmərin bağlanan mərkəzi hissəsi.



***Tapancaqabı*** - (qobur) odlu, əl silahı üçün hazırlanmış xüsusi qab. Dəridən və ya üzəri naxışlı, tikməli parça ilə örtülmüş olurdu.



***Təkəldüz*** - tikmə növüdür. Mahud, məxmər və ipək üzərində xüsusi mil vasitəsi ilə xırda ilmələrlə iç-içə xətlər yaradaraq naxış salınırdı. Təkəldüz üst geyimlərin, ev bəzək əşyalarının (balış üzü, süfrə, pərdə və s.) bəzədilməsi üçün istifadə olunardı. Təkəldüz tikməli libasları daha çox toy-bayram zamanı geyinərdilər.



***Təbərzin*** - qədim və orta əsrlərdə bir və ya ikitərəfli doğrayıcı soyuq silah növü. Həmçinin dərvişlərin gəzdirdikləri aypara şəkilli kəsici alət. Azərbaycanda arxeoloji qazıntılardan çoxsaylı ayparaşəkilli təbərzinlərin tapılması bu ərazidə onların geniş yayılmasını sübut edir.

# U

# Uzunboğaz çəkmə





***Uzunlülə tüfəng*** - XVIII-XIX əsrlərdə Azərbaycanda istifadə olunan nadir odlu silah növü. Çaxmaqlı tüfənglərə aid bu silah uzun və çox keyfiyyətli lüləyə malik idi. Şəkildəki tüfəngin lülәsi "dəməşq" poladından hazırlanmışdır.

***Ulduz*** – ulduzşəkilli ordenlərdən biri muzeydə qorunur. XIX əsrin sonunda Buxara əmiri tərəfindən təsis edilən qızıl və gümüşdən hazırlanan "Şərəfli Buxara" və ya "Buxaranın qızıl ulduzu" adlanan orden ilə tanınmış şəxsiyyətlər təltif edilirdi. Onların arasında sahibkar və məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə məxsus II dərəcəli "Şərəfli Buxara" nın gümüş ulduzu nümayiş olunur.



***Uzunboğaz çəkmə*** - ayaq üçün geyim növü. Azərbaycan ərazisində bu cür ayaqqabı növündən qədim dövrlərdən istifadə olunub. Bunu sübut edən arxeoloji qazıntılar zamanı Mingəçevirdən aşkar edilmiş b.e.ə.II min.sonu-I min.əvvəlinə aid gildən hazırlanmış uzunboğaz çəkməyə bənzər qablardır. Muzeydə bir neçə dənə uzunboğaz çəkmə formalı qablar qorunur.



# Ü



Üzengi



***Üstürlab*** – Qədim zamanlardan XVIII əsrə qədər astronomik ölçülərində və riyazi hesablamalarda istifadə olunan mexanik ölçü cihazıdır. Üstürlab Günəşin, Ayın, planetlərin ve ulduzların yerləşməsini,həmçinin dənizdə istiqaməti müəyyənləşdirmək üçün istifadə olunurdu.



***Ütü*** – paltarı ütüləmək üçün istifadə olunan alət. Əvvəllər ütünün dəstəyi ağacdan, gövdəsi metaldan idi. Gövdəsində olan boşluğun içərisi isti kömürlə doldurularaq, qızdırılırdı. İlk elektroütü Muzeydə müxtəlif çeşidli qədim ütülər qorunur.



***Üskük*** – tikiş zamanı barmağı iynədən qorumaq üçün istifadə olunur.Muzeydə üskük və onun metaldan hazırlanmış xüsusi tərtibatlı, üzəri gül təsvirli, asmaq üçün zənciri olan qabı qorunur.



***Üzəngi*** - yəhərin hər iki tərəfindən asılan metaldan hazırlanan süvari ləvazimatı. At üzərində yəhərdə əyləşərkən müvazinəti saxlamaq üçün nəzərdə tutulmuşdur. İlk dəfə üzəngi qədim türk xalqları tərəfindən erkən orta əsrlərdə icad edilmişdir.

# V





***Vəl*** - ağır və möhkəm ağacdan hazırlanan, alt tərəfindəki oyuqlara xırda daşlar keçirilərək taxılı döyən xırman aləti.



***Vərni*** - ipək və ya yun iplərdən toxunan xovsuz xalça növü. Üzərində Azərbaycan təsviri və dekorativ incəsənətində tez-tez rast olunan xeyir və şəri təmsil edən,  açıq və tünd rəngli stilizə olunmuş əjdaha təsvir olunur.Qarabağ, Naxçıvan, İrəvan və Qazax-Borçalı bölgələrində daha geniş yayılmışdır.




***Val*** - musiqini yazmaq üçün və qrammofon, patefon və ya elektrofonda oxutmaq üçün plastmasdan, vinildən və s. materiallardan hazırlanırdı. İlk val 1897-ci ildə ABŞ-da işıq üzü görmüşdür. Muzeydə qorunan ən qədim val məşhur xanəndə Qurban Pirimovun 1910-cu ildə Varşavada (Polşa) yazdırdığı muğam və təsniflərdən ibarətdir. Şəkildə isə tanınmış kamança ifaçısı, Azərbaycanın Xalq artisti  Habil Əliyevın valıdır.

# Y



Yeher



***Yelpik*** – sərinlənmək üçün istifadə olunan, tutacaq və xüsusi tərtibatlı parçadan ibarətdir. Yelpikləri güləbətin və ya təkəldüz tikmə, qızıl və gümüş piləklərlə, rəngarəng naxışlarla bəzəyirdilər. Muzeydə bir neçə müxtəlif formalı yelpiklər qorunur.



***Yəhər*** - atın belinə qayışlarla bərkidilən xüsusi oturacaq. Yəhərlərin sadə, döyüş və mərasim növləri olurdu. Muzeydə gözəl tərtibatlı, dəridən, gümüş lövhə, sümüklə bəzədilmiş yəhərlər qorunur.



***Yaba*** - döyüşdə və təsərrüfatda istifadə olunurdu. Tunc dövründə döyüşdə istifadə olunan yaba iki dişli, möhkəm, iti uclu və düz idi. Təsərrüfatda istifadə olunan yabalar isə əsasən üç dişlı və ucu əyilmiş formalı idi. Onları taxıl və ot yığımında, taxıl döyümündə istifadə edirdilər.

# Z

Zamburak





***Zili*** - müxtəlif rəngli ipək və ya yun iplərdən toxunan xovsuz xalça növü. Zili zərif toxunuşlu, özünəməxsus kompozisiyaya malikdir. Kvadrat və ya düzbucaqlara bölünən, üzərində üslublaşdırılmış heyvan və bitki elementləri ilə seçilən bu xalça növü xüsusi tərtibatı ilə digər xalçalardan seçilir.

***Zireh*** - Müdafiə silahları sırasında uzun tarixi dövrü əhatə edən geyim növüdür. Azərbaycanda ən qədim zireh II əsrə, ən son nümunəsi isə XIX əsrə aiddir. Zireh polad halqaların bir-birinə keçirilməsi ilə köynək və ya xalat formasında olurdu. Ən kiçik zirehin hazırlanmasında 15 000 xırda halqadan istifadə olunurdu. Muzeydə bir neçə zireh nümunəsi qorunur.





***Zəmburək*** - Kiçik çaplı top. Dəvə belində xüsusi yəhər üzərində daşınırdı.XVII-XIX əsrin birinci rübünə qədər döyüşlərdə istifadə olunurdu. Muzeydə müxtəlif çaplı zəmburəklər qorunur.




36
41
34
35


79



